**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ 010/261**

**Bakı şəhəri** **"28" fevral 2023-cü il**

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 2023-cü il 23-27 fevral tarixli rəsmi məlumatlarına əsasən, Braziliya Federativ Respublikasının Para (Pará) ştatında süngərvari ensefalopatiya, İraq Respublikasının Babil (Babil) və Ənbar (Al-Anbar) əyalətlərində dabaq, Amerika Birləşmiş Ştatlarının Nyu-York (New York) ştatında, Polşa Respublikasının Slask (Sląskie) inzibati ərazisində, Türkiyə Respublikasının Dənizli (Denizli) vilayətində və Sloveniya Respublikasının Gorenska (Gorenjska) regionunda isə yüksək patogen quş qripi (YPQQ) xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəliklərdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin Braziliya Federativ Respublikasının Para ştatında süngərvari ensefalopatiya, İraq Respublikasının Babil və Ənbar əyalətlərində dabaq, Amerika Birləşmiş Ştatlarının Nyu-York ştatında, Polşa Respublikasının Slask inzibati ərazisində, Türkiyə Respublikasının Dənizli vilayətində və Sloveniya Respublikasının Gorenska regionunda isə YPQQ xəstəliyinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

**2.** Braziliya Federativ Respublikasının Para ştatından bütün növ diri iribuynuzlu kənd təsərrüfatı heyvanları və onlara aid məhsulların, o cümlədən genetik materialların, tərkibinə heyvan mənşəli zülal və sümük unu əlavə olunan yemlərin idxalına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**3.** İraq Respublikasının Babil və Ənbar əyalətlərindən diri heyvanların, heyvan mənşəli məhsulların və xammalın idxalına, həmçinin tranzit daşınmasına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**4.** Amerika Birləşmiş Ştatlarının Nyu-York ştatından, Polşa Respublikasının Slask inzibati ərazisindən, Türkiyə Respublikasının Dənizli vilayətindən və Sloveniya Respublikasının Gorenska regionundan ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nə əsasən, zonalaşma prinsipi nəzərə alınmaqla, diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 10.4.23-cü və 10.4.25-ci maddələrinə uyğun olaraq, quş qripi viruslarının məhv edilməsini təmin

edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına və ölkə ərazisindən tranzit daşınmasına müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**5.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, Amerika Birləşmiş Ştatlarının Nyu-York ştatının, Polşa Respublikasının Slask inzibati ərazisinin, Türkiyə Respublikasının Dənizli vilayətinin və Sloveniya Respublikasının Gorenska regionunun sağlam ərazilərindən ölkəmizə idxal edilən adıçəkilən məhsullar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**6.** Xəstəliyin aşkarlandığı tarixə kimi qeyd olunan ərazilərdən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş müvafiq məhsulların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

**7.** Bu qərarın 2-ci, 3-cü və 4-cü bəndlərinin icrasının təmin edilməsi üçün, habelə Braziliya Federativ Respublikasının Para ştatından, İraq Respublikasının Babil və Ənbar əyalətlərindən, Amerika Birləşmiş Ştatlarının Nyu-York ştatından, Polşa Respublikasının Slask inzibati ərazisindən, Türkiyə Respublikasının Dənizli vilayətindən və Sloveniya Respublikasının Gorenska regionundan gələn, eyni zamanda bu inzibati ərazi vahidlərindən tranzitlə keçib respublikamıza daxil olan nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

**8.** Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərar barədə məlumatın Agentliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.

**9.** Bu qərarın Agentliyin struktur bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Dövlət Baytarlıq Xidmətinə və aidiyyəti dövlət orqanlarına göndərilməsi təmin edilsin.

**10.** Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**